

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 127 (23.539)

7 avqust 2020-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirə keçirib.

Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açaraq deyib: – Koronavirusa qarşı mübarizə işində müsbət dinamika müşahidə olunur. İyulun 16-dan bu günə qədər yoluxanların sayı sağalanların sayından xeyli aşağıdır... Bildiyiniz kimi, bu gün 46 xəstəxana ancaq koronavirus xəstələrinə xidmət göstərir. Onu da bildirməliyəm ki, bu 46 xəstəxananın 41-i son 17 il ərzində tikilib və ya əsaslı şəkildə təmir edilib, müasir avadanlıqlarla təchiz olunub. Əgər biz vaxtında bu addımları atmasaydıq, bu gün çox böyük problemlərlə, faciəvi vəziyyətlə üz-üzə qala bilərdik.

Prezident İlham Əliyev iqtisadi və sosial məsələlərdən danışaraq bildirib ki, son aylar ərzində mühüm işlər həyata keçirilib. Təqribən 5 milyona yaxın insan geniş sosial paketlə əhatə edilib. Dövlət sektorunda çalışan 900 min insanın böyük əksəriyyəti faktiki olaraq işləməsə də, dövlət tərəfindən əməkhaqqı alır. 760 min insana lazımi maliyyə dəstəyi göstərilib və onların iş yerləri qorunub.

Müşavirədə Baş Nazir Əli Əsədov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarov ölkə başçısına bu sahədə görülən işlərlə bağlı məlumat veriblər.

Dövlətimizin başçısı müşavirədə yekun nitqi söyləyib.

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasından irəli gələn vəzifələr müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasında qarşıya qoyulan vəzifələrə həsr olunmuş iclası nazir Nicat Babayev açıb. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq muxtar respublikanın əmək bazarı müntəzəm təhlil olunur, nəticələrə əsaslanaraq müxtəlif ixtisaslar üzrə peşə kursları təşkil edilir, əmək yarmarkaları keçirilir. Cari ilin birinci yarısında proqramın icrası ilə bağlı tədbirlər davam etdirilib, 1211 nəfər iqtisadiyyatın müxtəlif sahələrində daimi işə göndərilib. Eyni zamanda "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq ilin altı ayı ərzində 624 nəfər ailə üzvü olmaqla, sosial qayğıya ehtiyacı olan 133 ailənin özünüməşğulluğu təmin edilib.

Qeyd olunub ki, müvafiq dövr ərzində muxtar respublikada qeyri-formal məşğulluğun qarşısının alınması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilib, sosial qayğıya ehtiyacı olan insanlara, o cümlədən əlillərə, şəhid ailələrinə, tənha ahıllara, habelə sağlamlıq imkanları məhdud uşaqlara göstərilən xidmətlərin həcmi və keyfiyyəti yüksəldilib, bu istiqamətdə həyata keçirilən tədbirlər davamlı xarakter alıb.

Diqqətə çatdırılıb ki, xüsusi karantin rejimi dövründə muxtar respublikada yaşı 65-i keçmiş tənha yaşayan ahılların evlərinə sosial könüllülərin ziyarətləri təşkil olunub, tənha ahıl, ünvanlı dövlət sosial yardımı alan, çoxuşaqlı ailə və xüsusi qayğıya ehtiyacı olan ailələrə ərzaq payları verilib, muxtar respublikada təhsil alan və pandemiya səbəbindən ölkələrinə gedə bilməyən əcnəbi tələbələrə ərzaq payları və maddi yardım təqdim olunub. Bununla yanaşı, pandemiya əleyhinə qabaqlayıcı tədbirlər çərçivəsində Naxçıvan Muxtar Respublikasında xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar 9116 vətəndaşa 190 manat məbləğində birdəfəlik ödəmə təyin edilib.

Vurğulanıb ki, 2020-ci il martın 1-dən etibarən əlillik müddəti başa çatan əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların əlillik müddəti uzadılıb və karantin dövründə Protez-Ortopedik Bərpa Mərkəzinə gələ bilməyən şəxslərə səyyar xidmətlər göstərilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən müvafiq kateqoriyalı 22 nəfərə minik avtomobili, 2-si şəhid ailəsi olmaqla, 7 ailəyə isə mənzillər təqdim olunub.

Sonda məruzə ətrafında çıxışlar olub.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində keçirilən kollegiya iclasında nazir Azad Cabbarov bildirib ki, dövlət gənclər və idman siyasəti Ali Məclis Sədrinin rəhbərliyi altında uğurla həyata keçirilir. 2020-ci ilin I yarımili ərzində nazirlik tərəfindən, ümumilikdə, 181 tədbir reallaşdırılıb. Yeniyetmə və gənclər arasında "Xəmsə", "İntellektual oyunlar olimpiadası", "Peloton", "Kim? Nə? Hara?", "Axtar tap" və "Vətəni tanı" intellektual oyunları keçirilib. Bakı şəhərində universitet tələbələri arasında keçirilən "Poliqon" strateji intellekt oyunu üzrə III Universiadanın final mərhələsində muxtar respublikanı təmsil edən "Diplomat" komandasının iştirakı təmin edilib, ötən dövr ərzində fəaliyyətləri ilə fərqlənən gənclər mükafatlandırılıb, tələbələr üçün Ağbulaq İstirahət Mərkəzində "Qış məktəbləri" təşkil olunub, Naxçıvan şəhərindəki Sahil Parkında gənclər arasında "İncəsənət döyüşü" adlı rəsm müsabiqəsi keçirilib.



Diqqətə çatdırılıb ki, muxtar respublikadakı yaradıcı gənclərin aşkar edilməsi, onların tanıdılması, yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi üçün əlverişli mühitin formalaşdırılması məqsədilə yeni startap layihəsi olan "Yaradıcı Gənclər Akademiyası"na start verilib, diyarımızın turizm imkanlarının tanıdılması məqsədilə ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələrin "Welcome to Nakhchivan" adı altında Şərur rayonunda yerləşən muzeylərə ekskursiyası, həmçinin gənclər arasında "Qış möcüzəsi" adlı fotomüsabiqə təşkil edilib.

Vurğulanıb ki, hesabat dövründə nazirlik tərəfindən muxtar respublikada idmanın kütləviliyinin təmin edilməsi də diqqət mərkəzində saxlanılıb. "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında yeniyetmə və gənclər arasında güləş, voleybol və basketbol üzrə birinciliklər və yoldaşlıq görüşləri, Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr edilmiş Türkiyə Cümhuriyyətinin "Araz Təbiət, İdman və Mədəniyyət Klubu" rəhbərliyi və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyası idmançılarının Haçadağa yürüşü, Naxçıvan şəhərində yerləşən "Saat Meydanı" turistik istirahət mərkəzində muxtar respublikada ilk dəfə 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş "İdman festivalı" təşkil olunub.

Müxtəlif idman növləri üzrə muxtar respublika birincilikləri haqqında ətraflı məlumat verən nazir qeyd edib ki, hakimlər üçün təlim-məşq toplanışları, seminarlar təşkil olunub, Naxçıvan şəhərindəki Sahil Parkında iki idman meydançası yaradılıb və müxtəlif idman avadanlıqları ilə təmin olunub. Parkda tennis idman növü ilə məşğul olmaq üçün tennis kortu inşa edilib, 4 ədəd stolüstü tennis masası və velosiped zolağı, Uzunoba gölünün ətrafında çimərlik futbolu meydançası inşa edilərək istifadəyə verilib.

Diqqətə çatdırılıb ki, 2020-ci ilin I yarımilində idmançılarımız Azərbaycan birinciliklərində və bir sıra beynəlxalq turnirlərdə iştirak ediblər. Ölkə birinciliklərində 21, beynəlxalq turnirlərdə 17 medal olmaqla, ümumilikdə, 38 medal qazanılıb, 1 nəfər idmançının adı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na daxil edilib.

Sonra nazirlik əməkdaşlarının 2020-ci ildə qarşıda duran vəzifələrlə bağlı çıxışları dinlənilib.

## "Naxçıvan könüllüləri" vebsaytının təqdimatı olub

*Dünən Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunda "Naxçıvan könüllüləri" vebsaytının təqdimat mərasimi keçirilib.*

Tədbiri giriş sözü ilə Azərbaycan Respublikasının Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev açaraq bildirib ki, Prezident cənab İlham Əliyevin Sərəncamı ilə 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan edilməsi nəticəsində bir çox gənc yeni həyat tərzi, yeni stimul və yeni mənəvi dəyərlər qazanıb. Muxtar respublikada da son illər könüllülük fəaliyyətləri geniş vüsət alıb, bir çox idarə və müəssisələrin tərkibində könüllülük prinsipləri ətrafında yüzlərlə gənc toplanıb. Gənclər Fondu da Naxçıvan gənclərinin könüllülük prinsipləri ətrafında birləşməsi üçün 2018-ci ildən fəaliyyət istiqamətində müəyyən dəyişikliklər edib, müxtəlif dövlət qurumları ilə birgə 4 könüllülük platforması yaradıb.



Qeyd olunub ki, təqdimatı keçirilən *www.naxkonulluleri.nmr.az* saytının fəaliyyəti könüllülük hərəkatına yeni təkan verəcək. Saytın yaradılmasında məqsəd könüllülük hərəkatının gənclər arasında geniş təbliği, bütün könüllü təşkilatların həyata keçirəcəyi tədbirlər haqqında məlumatların operativ çatdırılmasıdır.

Cəbi Quliyev çıxışının sonunda gənclərin, eləcə də könüllülərin fəaliyyəti üçün yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Könüllülər adından Şövkət Kərimli çıxış edərək bir gənc kimi bilik və bacarıqlarının artırılmasında, dünyagörüşünün formalaşmasında, fərdi inkişafında könüllülüyün rolundan danışıb, muxtar respublikada gənclərə göstərilən qayğıya görə minnətdarlıq edib.

Sonra Gənclər Fondunun Gənclər təşkilatları və gənclərlə iş şöbəsinin müdiri Arzu Qasımov saytın təqdimatını edib. Bildirib ki, dizayn, quruluş və məzmun baxımından yüksək tələblərə cavab verən *www.naxkonulluleri.nmr.az* saytı vasitəsilə könüllülük fəaliyyətinin ayrı-ayrı istiqamətləri, bu sahədə olan yeniliklər, həyata keçirilən tədbirlər daha dolğun və operativ şəkildə könüllü gənclərə, eləcə də ictimaiyyətə çatdırılacaqdır. Sayt, ümumilikdə, 6 bölmə, 21 altbölmədən ibarətdir. Burada həm könüllülər və könüllü fəaliyyət həyata keçirən təşkilatlar, həm də işəgötürənlər üçün müvafiq imkanlar yaradılıb, bütün iş prosesinə mərkəzi nəzarət və idarəetmə mexanizmi qurulub. Həmçinin saytda rəsmi sənədlər, könüllülük və könüllülər haqqında məlumatlar, könüllü olmaq üçün təşkilatların tələbləri, İdeya və İnkişaf Mərkəzinə layihələrin təqdimedilmə qaydaları və digər məlumat bölmələri yerləşdirilib. Əsas səhifədə istifadəçilərin informasiya əldə etmələri üçün "Axtarış" bölməsi, həmçinin "Sertifikatını yoxla", "Ayın könüllüsü", "Təqvim", "Layihələr" bölmələri yaradılıb və sosial şəbəkə səhifələrinə asan keçidlər verilib. Bundan əlavə, "Könüllü ol!" bölməsi vasitəsilə gənclər istədikləri quruma könüllü olmaq üçün müraciət edə biləcəklər. Ana səhifədə aktiv könüllü və aktiv layihə sayı ilə, eləcə də burada yaradılmış "Giriş" bölməsi vasitəsilə müvafiq istiqamətdə keçirilən bütün tədbirlərlə, yeni könüllü istəkləri ilə tanış ola biləcəklər. Könüllülərin müraciətlərinin onlayn təşkili məqsədilə "Elektron müraciət" bölməsi yaradılıb, "Aktual keçidlər" bölməsində isə nazirlik, komitə, idarə və təşkilatların, həmçinin muzeylərin internet saytlarına keçidlər slayd şəklində yerləşdirilib. Saytın aşağı hissəsində muxtar respublikamızın inkişafını və turizm potensialını əks etdirən materiallar, eləcə də tarixi abidələrini fotoşəkillərı slaydlarla təqdim olunur.

Tədbirin sonunda Naxçıvan könüllülərinin fəaliyyətini əks etdirən videoçarxa baxış olub.

**Xəbərlər şöbəsi**

*Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə bütün sahələrdə olduğu kimi, elm sahəsinin inkişafında da əvəzsiz xidmətlər göstərmişdir. Görkəmli dövlət xadiminin ölkə elminin inkişafı sahəsində qəbul etdiyi mühüm tarixi qərarlardan biri də 2002-ci il 7 avqust tarixli Sərəncamla Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılmasıdır. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təşkili və formalaşdırılması ilə əlaqədar ulu öndərin sədrliyi ilə 2002-ci il avqustun 12-də Naxçıvan Muxtar Respublikasında müşavirə keçirilmişdir. Müşavirədə bölmənin yaradılması zəruriliyindən bəhs edən ümummilli lider Heydər Əliyev demişdir:* ***"Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüflər olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib..."***

***2002-ci il avqustun 7-də AMEA Naxçıvan Bölməsi təsis edilib***

# Naxçıvanın elm məbədində əldə olunan uğurlar elmə göstərilən qayğının təntənəsidir

Ötən dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı nəticəsində bölmənin Aparatı, Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat, Təbii Ehtiyatlar və Bioresurslar institutları müasir tələblərə cavab verən binalarla təmin edilmişdir. Batabat Astrofizika Rəsədxanasının Batabat stansiyası və Bioresurslar İnstitutunun Nəbatat bağının, Ordubad rayonunun Aşağı Əylis kəndində həmin institutun Biokimyəvi tədqiqatlar laboratoriyası üçün inzibati binalar tikilib istifadəyə verilmiş, rəsədxananın teleskop sistemi yenidən qurulmuşdur. Bölmənin nəzdində müasir avadanlıqlarla təchiz olunan "Tusi" nəşriyyatı, "Yaşıl aptek", "Arxeologiya və Etnoqrafiya muzeyi", Distant Təhsil Mərkəzi, İnformasiya Kommunikasiya Texnologiyaları otağı yaradılmışdır. Seysmoloji xidmət şöbəsi zəruri müasir avadanlıqlar və proqram təminatı ilə təchiz olunmuşdur. Nəbatat bağı ərazisində "Ultra Sera" ailəsinə məxsus son texnologiyaya malik istixana qurulmuşdur. Həmçinin ötən müddətdə bölmənin Elmi Kitabxanasının bazasında elektron kitabxana yaradılmış və 12 terabayt yaddaşı olan əsas və ehtiyat server quraşdırılmış, 6 oxucu yeri olan elektron oxu zalı istifadəyə verilmişdir. Kitabxana surətköçürmə aparatı, printer, elektron daşıyıcılarda olan məlumatların vizual və səsli izlənməsi üçün bir ədəd televizor və mobil elektron lövhə ilə təmin edilmişdir. Bundan əlavə, bölmədə Vətən tarixi, Arxeologiya, Fiziki kimya ixtisasları üzrə dissertasiya şuraları yaradılmışdır ki, bu şuralar da muxtar respublikada elmi kadr hazırlığında mühüm rol oynayır. Bölmə kompüter, kompüter avadanlıqları ilə təmin olunmuş, internet şəbəkəsinə mütəmadi qoşulmaq imkanı yaradılmışdır. Müxtəlif elmi-tədqiqat laboratoriyaları ən müasir avadanlıq, elmi cihazlar və kimyəvi reaktivlərlə təchiz edilmişdir.

Muxtar respublika ərazisində etnoqrafik və epiqrafik, onomastik, dialektoloji və folklor, təbii sərvətlər, flora və fauna, o cümlədən nadir kitab və əlyazmaların toplanılması, elmi ekspedisiyaların aparılması, qədim yaşayış yerlərinin tarixinin öyrənilməsi, maddi mədəniyyət nümunələrinin elmi cəhətdən analiz edilməsi bölmə qarşısında duran əsas vəzifələrdəndir. Şöbə və laboratoriyaların komplektləşdirilməsi, ixtisaslı elmi kadrların hazırlanması, eləcə də elmi tədqiqatların keyfiyyətinin yüksəldilməsi və elmin istehsalata tətbiqi də diqqətdə saxlanılan əsas məsələlərdən biridir. Ötən illərdə bölmədə müəyyən olunan müvafiq profillərə uyğun tədqiqat işləri aparılmış, mühüm elmi nəticələr əldə edilmiş və çoxsaylı elmi əsərlər ortaya qoyulmuşdur.

Naxçıvan Bölməsi fəaliyyəti dövründə bir çox uğurlar əldə etmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri cənab Vasif Talıbovun tövsiyə və qayğısı ilə 2 cildlik "Naxçıvan Ensiklopediyası", Azərbaycan və ingilis dillərində "Naxçıvan abidələri ensiklopediyası", 3 cildlik "Naxçıvan tarixi", "Naxçıvanın tarixi atlası", "Naxçıvan teatrının salnaməsi", 3 cildlik "Naxçıvan folkloru antologiyası", 2 cildlik "Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitabı", "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası", Azərbaycan və rus dillərində "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri", Azərbaycan, ingilis və rus dillərində "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlası", 2 cildlik "Naxçıvan coğrafiyası" və digər fundamental elmi əsərlər hazırlanaraq nəşr edilmişdir. Bölmədə Naxçıvan ərazisində qeydə alınmış 1200-dən artıq arxeoloji, tarix və mədəniyyət abidəsi haqqında elmi məlumatlar hazırlanmış və pasportlaşdırılmışdır.

Muxtar respublika ərazisində aparılan araşdırmaların nəticələri əsasında elmin müxtəlif sahələrinə işıq salan çoxsaylı tədqiqat əsərləri təkcə Naxçıvanın deyil, ümumilikdə, Azərbaycan elminin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bölmənin fəaliyyəti dövründə əməkdaşların 228 monoqrafiyası, 210 kitabı, 8761 elmi məqalə və konfrans materialı, 219 tezisi, 50 bukleti, 28 metodik vəsaiti, 7 kitabça, 6 dərs vəsaiti, 22 xəritə olmaqla, 5 tövsiyəsi çap olunmuşdur. Əsərlərdən 24 monoqrafiya, 19 kitab, 1862 məqalə və konfrans materialı, 71 tezis xaricdə işıq üzü görmüşdür. Bu gün bölmə əməkdaşlarının müxtəlif ölkələrdə bir sıra xarici dillərdə çap olunan kitab və monoqrafiyaları, beynəlxalq kodlu jurnallarda işıq üzü görən çoxsaylı sanballı elmi əsərləri, Türkiyə, İran və Fransanın müxtəlif qəzetlərində dərc olunan elmi-kütləvi məqalələri Naxçıvanda aparılan elmi araşdırmaların beynəlxalq aləmdə tanınmasına zəmin yaradır. Bu dövrdə 28 patent alınmışdır. Bölmə əməkdaşları Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, Azərbaycan Milli Elmlər Akademiyası, Rusiya Fundamental Tədqiqatlar Fondu, Ümumdünya Təbiəti Mühafizə Fondunun elmin müxtəlif istiqamətləri üzrə keçirdikləri qrant müsabiqələrində iştirak edərək 19-u respublika və 4-ü beynəlxalq səviyyəli olmaqla, 23 qrant layihəsinin qalibi olmuşlar.

Dövlətin dəstəyi ilə hər il elmi ezamiyyələrə göndərilən bölmə əməkdaşları ötən illərdə Türkiyənin İstanbul şəhərinin Süleymaniyə Kitabxanasında və Topqapı Sarayı Muzeyində, Rusiya Dövlət Tarix Arxivində, Rusiya Dövlət Hərbi-Tarix Arxivində, Gürcüstan Milli Arxivində, Gürcüstan Milli Mərkəzi Kitabxanasında, Gürcüstan Dövlət Tarix Muzeyində, İngiltərənin Milli arxivlərində, digər arxiv, muzey və kitabxanalarında olmuş, orada Naxçıvanla bağlı toplanılan yeni materialları tədqiqata cəlb etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində son illər fundamental tədqiqat işləri həyata keçirən bölmənin Təbii Ehtiyatlar və Bioresurslar institutlarının laboratoriyalarında tətbiqyönümlü tədqiqatlar aparılır. Ali Məclis Sədrinin "Şorsu" müalicəvi palçığının hazırlanması ilə bağlı müvafiq tapşırığından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində görülən işlər nəticəsində müalicəvi palçığın qatılaşdırılma, qurudulma metodikası, texniki şərtləri hazırlanmış, həm krem, həm də quru toz formasında qablaşdırılaraq əczaxanalara satışa göndərilmişdir. Həmçinin Darıdağ arsenli suyundan quru qalığın alınması üçün istehsal şəraiti yaradılmış, eyni zamanda Biləv zəy süxurundan üç birləşmənin alınması istiqamətində geniş



tədqiqatlar aparılır. Qabıllı və Duzdağdan gətirilən gil nümunələrinin tərkibi bölmə əməkdaşları tərəfindən müəyyən edilmiş, gil əsasında yuyucu tozun hazırlanması istiqamətində tədqiqatlar davam etdirilir. Naxçıvan Muxtar Respublikası ərazisində, ümumilikdə, 30 faydalı bitki qrupu müəyyən edilmişdir. Bioresurslar İnstitutunun laboratoriyasında steril şəraitdə qurudulan dərman bitkilərindən xüsusi seçilmiş reseptlərə əsasən qarışıqlar hazırlanaraq qablaşdırılmış və bölmənin "Yaşıl aptek"inə, eyni zamanda muxtar respublikada fəaliyyət göstərən digər əczaxanalara satış üçün göndərilmişdir. Bundan başqa, bölmənin Biokimyəvi tədqiqatlar laboratoriyasının bazasında bitkilərdən müxtəlif efir yağları, gülab, boya, doşab alınması planlaşdırılmış və gülab istehsal edilmişdir. Laboratoriyanın imkanlarından istifadə etməklə gül suyunun istehsalını artırmaqla nanə cövhəri, çaytikanı, kəklikotu, yovşan, razyana, çöl nanəsi, üzərlik yağları, sarıçiçəkdən həm rəng, həm də toxumundan yağ, o cümlədən həmərsin doşabı, müxtəlif çeşidli mürəbbələr və kompotlar istehsal etmək nəzərdə tutulmuşdur.

Fəaliyyəti dövründə AMEA Naxçıvan Bölməsinin 68 əməkdaşı Türkiyə, İran, Rusiya, Gürcüstan, Fransa, Almaniya və başqa xarici ölkələrdə keçirilən 482 beynəlxalq konfrans, konqres və simpoziumlarda iştirak etmişdir. Eyni zamanda bölmədə müxtəlif elm və tədris müəssisələrinin iştirakı ilə "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", "Naxçıvan: ilkin şəhər və Duzdağ", "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan", "Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə", "Naxçıvan: İslam mədəniyyətinin paytaxtı", "Naxçıvan qalaları: tarixdə və günümüzdə", "Görkəmli Azərbaycan mütəfəkkiri: Nemətullah Naxçıvani" və digər beynəlxalq simpozium və konfranslar keçirilmiş, Türkiyə, İran, Rusiya, ABŞ, Misir və digər ölkələrdən öz araşdırmaları ilə elm aləmində tanınan tədqiqatçılar dəvət olunmuşlar.

Bölmənin arxeoloq alim və gənc tədqiqatçıları 2006-cı ildən başlayaraq Beynəlxalq Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının tərkibində muxtar respublikanın Ovçular təpəsi, Duzdağda və 2013-cü ildən I Kültəpə, Uçan Ağıl, Şorsu, Zirincli, Uzunoba yaşayış yerlərində arxeoloji tədqiqat aparmışlar. Tədqiqatlarda Türkiyə, Almaniya, Suriya, Macarıstan, İtaliya, Kanada və digər ölkələrin mütəxəssisləri də yaxından iştirak etmişdir. Azərbaycan-ABŞ beynəlxalq arxeoloji ekspedisiyası 2008-ci ildə Oğlanqala, 2014-cü ildən isə Qızqala yaşayış yerində və onun ətrafında AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin rəhbərliyi ilə ABŞ-ın Pensilvaniya, Avstraliyanın Monash, Böyük Britaniyanın Oksford universitetlərinin arxeoloqları ilə birlikdə arxeoloji tədqiqat aparmışlar. Beynəlxalq ekspedisiyanın əldə etdiyi nəticələr "Amerikan Arxeoloji Jurnalı", "İranica Antica", "Российская археология", "TUBA-AR" və digər Tomson Science indeksinə daxil olan jurnal və beynəlxalq məcmuələrdə nəşr olunmuşdur. Aparılan tədqiqatlarla bağlı "Naxçıvanın Eneolit mədəniyyətinin Yaxın Şərq ölkələri ilə əlaqələri", "Naxçıvantəpədə 2017-2018-ci illərin arxeoloji tədqiqatları", "Erkən və Orta Tunc dövründə Şərqi Anadolu və Gürcüstanın mədəni əlaqələri", "Naxçıvançay və Sirabçay vadisi abidələrinin tədqiqi", "Oğlanqalada arxeoloji araşdırmalar", "Qızqala yaşayış yeri və nekropolunun Şərqi Anadolu və Azərbaycanın Boyalı qablar mədəniyyətinin öyrənilməsində əhəmiyyəti" və sair mövzularda beynəlxalq konfranslarda məruzələr edilmişdir. Naxçıvanın tarixi ilə yanaşı, onun təbiəti də beynəlxalq ekspedisiyaların diqqət mərkəzindədir. Bioloq alimlərimiz müxtəlif illərdə türkiyəli mütəxəssislər ilə birgə ot bitkilərinin öyrənilməsi, Macarıstan Quşları Müdafiə Cəmiyyətinin üzvləri ilə birlikdə muxtar respublikanın orta dağlıq zonasında quşların yerləşməsi və mövcud vəziyyətinin öyrənilməsi, Fransanın Milli Kənd Təsərrüfatı İnstitutunun alimləri ilə bərabər bitkilərdə virus xəstəliklərinin araşdırılması, Rusiya Elmlər Akademiyasının Uzaq Şərq Bölməsinin alimləri ilə birgə yabanı arıların tozlanma prosesindəki iştirakına dair tədqiqatlar aparmış, Almaniyadan gələn ornitologiya üzrə beynəlxalq ekspedisiyaların tərkibində muxtar respublikanın ayrı-ayrı ərazilərində bu işləri davam etdirmişlər. Bununla yanaşı, Bioresurslar İnstitutunun əməkdaşları Rusiya Elmlər Akademiyasının əməkdaşları ilə "Naxçıvanda qışlayan ağqaşqaz və digər su quşlarının öyrənilməsi" layihəsi üzrə tədqiqat aparmış və nəticələri "Kazarka" jurnalında dərc olunmuşdur.

Göstərilən dövlət qayğısı nəticəsində bölmənin beynəlxalq əlaqələri də genişlənmişdir. Bu elm ocağı hazırda Türkiyənin İstanbul, Ankara, Ərzurum, İqdır, Qars universitetləri, İranın Təbriz Dövlət Universiteti, Təbriz Milli Kitabxanası, Şimali Makedoniya Respublikasının "Vision" Universiteti, Rusiya Federasiyasının Elmlər Akademiyası, Moskva Dövlət, Tomsk universitetləri, Yer Maqnetizmi, Krım Astrofizika Rəsədxanası, Ümumdünya Təbiəti Mühafizə Fondu, Gürcüstan Respublikası Batumi Botanika Bağı, ABŞ, Fransa və digər xarici ölkələrin elmi müəssisələri ilə yaxından əməkdaşlıq edir. Bölmə əməkdaşları muxtar respublika ərazisində ABŞ-ın Pensilvaniya, Avstraliyanın Monash, Oksford universitetlərinin arxeoloqları, o cümlədən Almaniyanın Humboldt Universitetinin və digər xarici ölkələrdən gələn bioloq mütəxəssisləri ilə birgə tədqiqatlar aparmışlar. Beynəlxalq ekspedisiyaların əldə etdiyi nəticələr "Web of Science", "Scopus" və digər elmi bazalara daxil olan impakt faktorlu jurnallarda çap edilmişdir. Tədqiqatların nəticələri ilə bağlı beynəlxalq konfranslarda məruzələrlə çıxış edilmişdir. Ölkə hüdudlarından kənarda da tanınan və xarici tədqiqatçılar tərəfindən elmi əsərlərinə istinad edilən alimlərimizin uğurlu nailiyyətlərin beynəlxalq səviyyədə qəbul edilməsinin nəticəsidir ki, bölmə əməkdaşlarından bir neçəsi elm və təhsilin inkişafındakı xidmətlərinə görə xarici ölkələrin mükafatlarını almış, eyni zamanda beynəlxalq qurumların və jurnalların redaksiya heyətinə üzv seçilmişlər.

AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi tərəfindən birgə həyata keçirilən "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində bölmə alimlərinin rəhbərliyi ilə muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri müxtəlif layihələrdə uğurlu nəticələr əldə etmişlər.

Bölmə əməkdaşlarının elm və təhsilin inkişafında göstərdiyi səmərəli fəaliyyəti dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilmişdir. Ölkə Prezidentinin müvafiq sərəncamları əsasında 3 nəfər "Əməkdar elm xadimi", 2 nəfər "Əməkdar müəllim", 4 nəfər "Tərəqqi" medalı, 2 nəfər isə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" medalı ilə təltif olunmuşdur. Əməkdaşlardan biri Prezident təqaüdünə, digəri isə Prezident mükafatına layiq görülmüşdür. O cümlədən 3 nəfər ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyi ilə əlaqədar "Yubiley qızıl medalı", 2 nəfər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı, bir nəfər "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif olunmuşdur. Bölmənin 4 əməkdaşına Naxçıvan şəhərində mənzil, bir əməkdaşa isə torpaq sahəsi verilmişdir. Bütün bunlar ölkəmizdə elm adamlarına, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin işinə göstərilən diqqətin, dövlət qayğısının bariz nümunələridir.

Qazanılan son elmi uğurlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2018-ci il 7 sentyabr tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun da mühüm rolu vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının fəaliyyətinin təşkili və qarşıda duran vəzifələrlə bağlı müşavirədə də vurğulandığı kimi fondun yaradılması elm sahəsində fundamental araşdırmaların aparılması, beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə yeni layihələrin həyata keçirilməsi kimi mühüm məramə xidmət edir və zəngin elmi potensiala malik muxtar respublikamızda daha böyük elmi nailiyyətlərin qazanılmasına öz töhfəsini verməkdədir.

*Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin əməkdaşları qarşıya qoyulan vəzifələrin bundan sonra da yüksək səviyyədə yerinə yetirilməsinə, mövcud elmi potensialdan səmərəli istifadə etməklə elmi-tədqiqat işlərinin müasir tələblər səviyyəsində aparılmasına çalışacaqlar.*

**Türkanə BƏYLƏRLİ**
***AMEA Naxçıvan Bölməsinin***
***Beynəlxalq əlaqələr və informasiya şöbəsinin əməkdaşı***

# Təlimlər davam edir

***Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri davam edir.***

Təlimin ssenarisinə əsasən birləşmə və tabor qərargahları ilə hərbi qərar qəbuletmə prosesinə uyğun tapşırığın aydınlaşdırılması, vəziyyətin qiymətləndirilməsi, ərazidə tapşırıqların dəqiqləşdirilməsi, birgə danışıq cədvəllərinin işlənilib hazırlanması kimi tədbirlər həyata keçirilir.





Türkiyə Silahlı Qüvvələrinin bölmələri ilə birgə fəaliyyət zamanı idarəetmənin və rabitə əlaqəsinin təşkili üzrə fəaliyyətlər yerinə yetirilir. Bölmələrin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq üçün qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması ilə bağlı verilmiş qərar və tapşırıqlar Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində kompüterlər üzərində icra olunur.

**Nəriman NƏCƏFOV**

*Naxçıvan Muxtar Respublikasında uğurlu sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri də dayanıqlı iqtisadi inkişafın təmin olunması şəraitində əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, əmək ehtiyatlarından səmərəli istifadənin, o cümlədən məşğulluğun təminatıdır. Bu sahədə görülən işlərin miqyası ildən-ilə genişlənir, yeni iş yerləri yaradılır, işaxtaranların özünüməşğulluq imkanlarının artırılması diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” da məşğulluq sahəsində kompleks tədbirlərin uğurla davam etdirilməsi üçün yeni imkanlar yaradır. Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında qəbul olunmuş Fəaliyyət Proqramında qeyd olunduğu kimi:* ***“Qarşıdakı dövrdə də ulu öndərin yoluna sadiq qalmaqla Naxçıvan Muxtar Respublikasının inkişafı təmin edilməli, əhalinin yaşayış səviyyəsi daha da yaxşılaşdırılmalı, yeni istehsal sahələri və bununla bərabər iş yerləri yaradılmalı, sosial sahələrin inkişafına diqqət artırılmalıdır”.***

*Dövlət proqramı icra olunur*

## Muxtar respublikada əhalinin məşğulluğu diqqətdə saxlanılır

Dövlət proqramında 36 bənddən ibarət tapşırıqlar nəzərdə tutulmuş, onların icrası ilə bağlı işlər 2020-ci ilin ikinci rübündə də davam etdirilmişdir. Müasir infrastruktur obyektlərinin, yerli resurslara əsaslanan istehsal və xidmət müəssisələrinin yaradılması ilə bağlı tədbirlərin həyata keçirilməsi muxtar respublikada məşğulluğun artırılması sahəsində mühüm rol oynamışdır. Yeni istifadəyə verilən müəssisələrdə əhalinin işlə təmin olunması aparılan məqsədyönlü iqtisadi siyasətin mərkəzində insan faktorunun dayandığını bir daha sübut edir. Aprelin 9-da Ali Məclis Sədrinin iştirakı ilə Naxçıvan şəhərində “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyəti üçün yeni kompleks istifadəyə verilmişdir. 60 nəfərin işlə təmin olun-



duğu toxumçuluq təsərrüfatı muxtar respublikada aqrar sektorun inkişafında xüsusi əhəmiyyətə malik olmaqla yanaşı, məşğulluq sahəsində də mühüm rol oynayacaqdır. Mayın 22-də Şahbuz rayonunun Badamlı qəsəbəsində “Badamlı” Mineral Sular Zavodu istifadəyə verilmişdir. Bu münasibətlə keçirilən tədbirdə iştirak edən Ali Məclisin Sədri zavodun istifadəyə verilməsinin muxtar respublikada məşğulluğun təmin olunmasına mühüm töhfə olduğuna diqqəti çəkərək demişdir: ***“Zavodda 72 nəfər işlə təmin edilmişdir. Fəaliyyətin səmərəli qurulması gələcəkdə yeni iş yerlərinin açılmasına və digər təbii sərvətlərimizdən də səmərəli istifadəyə imkan verəcəkdir”.***

Dövlət proqramında xüsusi əhəmiyyət kəsb edən tədbirlərdən biri də kənd xidmət mərkəzlərinin müvafiq kadrlarla təmin olunmasıdır. Muxtar respublikanın kəndlərində aparılan kompleks quruculuq işləri insanların sosial rifah halının yaxşılaşdırılması ilə yanaşı, yeni iş yerlərinin yaradılması və məşğulluğun təmin edilməsi istiqamətində də mühüm əhəmiyyətə malikdir. Mayın 18-də Ali Məclisin Sədri tərəfindən açılışı həyata keçirilən Muğancıq-Mehrab kənd xidmət mərkəzində 6 nəfər işlə təmin olunmuşdur.

İkinci rübdə, eyni zamanda nəqliyyat sektorunun inkişafı ilə bağlı görülən işlər də əhalinin məşğulluq səviyyəsinin yaxşılaşmasına şərait yaratmışdır. İyunun 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə 6 yeni avtobus təqdim edilmişdir. Yeni avtobusların xəttə buraxılması həm şəhərdaxili sərnişindaşıma xidmətinin müasir tələblər səviyyəsində qurulmasına, həm də 12 nəfərin işlə təmin olunması ilə məşğulluğun artırılmasına xidmət etməkdədir.

Qeyd olunanlarla yanaşı, ikinci rübdə Naxçıvan şəhərində “Naxçıvan – Təmiz Şəhər” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən tullantıların yığılması, emalı, ləğv edilməsi və topdansatış sahəsinin, “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqı tərəfindən “Decoria” Alış-Veriş Mərkəzinin yenidən qurulması başa çatdırılmışdır. “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan bölməsinin, Naxçıvan Regional Yun və Təbii Boyaq Bitkilərinin Tədarükü Məntəqəsinin, “Gənclər Yaşayış Kompleksi”nin qurulması, odun kömürü istehsalı sahəsinin, böyük həcmli su taraları üçün plastik kapsul və qapaq istehsalı sahəsinin yaradılması, “Naxçıvan Avtomobil Zavodu” Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətinin və unlu-qənnadı məmulatlarının istehsalı sahəsinin genişləndirilməsi davam etdirilmişdir.

Aprel-iyun aylarında proqramın icrası istiqamətində əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi üzrə tədbirlər davam etdirilmişdir. Vergi orqanlarında qeydiyyatdan keçən fiziki və hüquqi şəxslər haqqında məlumatlar təhlil olunaraq boş iş yerləri məşğulluq mərkəzlərində qeydiyyata alınmışdır. Ümumiyyətlə, ikinci rübdə məşğulluq xidməti orqanları tərəfindən 642 nəfər vakant iş yerlərinə göndərilmişdir ki, onların da 165-ni gənclər, 118-ni qadınlar, 5-ni isə sağlamlıq imkanları məhdud şəxslər təşkil edir.

Yeni iş yerlərinin yaradılmasında sahibkarlığın müxtəlif formalarının inkişafının rolu əvəzsizdir. Sahibkarlığın formalaşması iqtisadi inkişafın, məşğulluğun təmin olunmasının və həyat səviyyəsinin yüksəldilməsinin mühüm şərtlərindəndir. Muxtar respublikada sahibkarlığın inkişafına göstərilən dövlət qayğısı məşğulluq sahəsində də səmərəliliyin artırılmasına səbəb olmuşdur. Həyata keçirilən tədbirlər bir tərəfdən



sahibkarlıq fəaliyyətini stimullaşdırırsa, digər tərəfdən də yeni iş yerlərinin yaradılması ilə işaxtaranların səmərəli məşğulluğunun təmin olunmasına xidmət edir. Dövlət proqramında da müəyyən olunan aktiv məşğulluq tədbirləri içərisində kiçik və orta sahibkarlığın inkişafı, həmçinin iş yerlərinin açılması məqsədilə dövlət maliyyə dəstəyinin göstərilməsi xüsusi yer tutur. İkinci rübdə bu istiqamətdə müvəkkil kredit təşkilatları tərəfindən məqsədəmüvafiq hesab edilən layihələr Sahibkarlığın İnkişafı Fonduna göndərilmişdir. Muxtar respublikada istehsal və xidmət sahələrində dövlət maliyyə dəstəyi hesabına 59, özəl investisiya qoyuluşu hesabına 147 olmaqla, ümumilikdə, 206 yeni iş yeri yaradılmışdır. Həmçinin bu dövrdə dövlət maliyyə dəstəyi hesabına 472, özəl investisiya qoyuluşu hesabına 25 olmaqla, ümumilikdə, 497 yeni iş yerinin açılması istiqamətində işlər davam etdirilmişdir. Dövlət proqramında müəyyən edilmiş mütərəqqi tədbirlərdən biri də kreditləşməsi zamanı, ilk növbədə, sahibkarların innovasiyalar tətbiq olunan yeni iş yerlərinin yaradılmasına yönəldilmiş layihələrinə üstünlük verilməsidir. İkinci rübdə bu məqsədlə Naxçıvan şəhəri üzrə 1 hüquqi şəxsə 3 milyon manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Məşğulluğun təmin olunmasında əmək yarmarkalarının rolu xüsusilə qeyd edilməlidir. Məhz bu yarmarkalarda işaxtaranlara vakant iş yerləri təklif olunur, onlara peşə bacarıqlarına, əmək vərdişlərinə uyğun göndərişlər verilir, peşəsi olmayan və ya bacarığına uyğun iş tapmaqda çətinlik çəkən şəxslər peşə hazırlığına cəlb olunur. Dövlət proqramında da əmək yarmarkalarının mütəmadi olaraq keçirilməsi ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. İkinci rübdə yarmarkalara 198 müəssisədən 1580 boş iş yeri çıxarılmış, 209 nəfər işlə təmin olunmuşdur. İşə göndərilənlərdən 105-i dövlət, 104-ü isə özəl sektorun payına düşür. Eyni zamanda ordu sıralarından tərxis olunan 4 nəfər peşə təhsilinə cəlb edilməsi üçün qeydiyyata götürülmüşdür.

Muxtar respublikada məşğulluq səviyyəsinin artırılmasına təsir edən mühüm faktorlardan biri də rayonların sosial-iqtisadi inkişaf perspektivləri, kənd yerlərində bu sahədə formalaşmış ənənələr nəzərə alınmaqla fərdi təsərrüfatların və kiçik müəssisələrin yaradılmasıdır. Aprel-iyun aylarında 2 hektarda kartof, 12 hektarda qarğıdalı və bostan bitkilərinin əkini, 8 heyvandarlıq, 1 bağçılıq, 2 arıçılıq təsərrüfatı, eləcə də 1 cücə istehsalı, 2 meyvə-tərəvəz məhsullarının qablaşdırılması sahəsi yaradılmışdır. Eyni zamanda 5 heyvandarlıq, 1 bağçılıq təsərrüfatının genişləndirilməsi və 1 istixana təsərrüfatının fəaliyyətinin bərpası başa çatdırılmışdır.

Muxtar respublikada son illərdə aparılan islahatlar iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur. Bu da dinamik iqtisadi inkişafı təmin etmişdir. Həyata keçirilən sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri də əmək bazarının inkişafı və işçi qüvvəsindən səmərəli istifadə edilməsidir. Əmək bazarının düzgün təhlili və buna uyğun peşə hazırlığının təşkili əhalinin səmərəli məşğulluğunun təmin edilməsi yolu ilə həyat səviyyəsinin daha da yaxşılaşdırılmasında böyük rol oynayır. “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın məqsədlərindən biri də muxtar respublikada peşə hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılmasıdır. İkinci rübdə bu istiqamətdə müxtəlif ixtisaslar üzrə peşə kurslarının təşkili diqqət mərkəzində olmuşdur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təşkil edilmiş kurslara 28 nəfər cəlb edilmiş, Naxçıvan Regional Peşə Tədris Mərkəzində bərbər, xalçaçı, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər ixtisasartırma kurslarında, ümumilikdə, 80 müdavim təhsilini davam etdirmişdir. Mərkəzdə ilin əvvəlindən başlamış qazanxana maşinisti və bərbər kurslarını ikinci rübdə 37 müdavim bitirmişdir. Təhsil Nazirliyinə tabe olan müəssisələrdə isə gözətçi, bərbər, kompüter istifadəçisi və xalçaçı peşələri üzrə kurslarda 75 müdavim peşə təhsilini başa vurmuş, turizm agenti, dərzi və aşpaz peşələri üzrə 41 nəfər təhsilini davam etdirmişdir.

Muxtar respublikada aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, onların aktiv əməyə cəlbinə, məşğulluğunun təmin olunmasına xüsusi diqqət yetirilir. Bu baxımdan sosial cəhətdən həssas əhali qruplarının məşğulluğunun təmin edilməsi ilə bağlı həyata keçirilən tədbirlərin əhatə dairəsi genişləndirilmişdir. Dövlət proqramında bu istiqamətdə mühüm tədbirlər müəyyən edilmiş və ikinci rübdə icrası həyata keçirilmişdir. Sosial müdafiəyə xüsusi ehtiyacı olanların və işə düzəlməkdə çətinlik çəkənlərin işlə təmin olunması üçün Naxçıvan şəhəri, Babək, Ordubad, Culfa rayonları üzrə dövlət və özəl müəssisələrdə kvota yerləri ayrılmış, bu kateqoriyadan olan 3 nəfər kvota yerlərinə işə göndərilmişdir. “Naxçıvan Muxtar Respublikasında COVİD-19-un təsirinə məruz qalmış qadınlara iqtisadi dəstək” layihəsi çərçivəsində 39 qadına 25 min 550 manat dəyərində sərmayə kapitalı verilmişdir ki, bu qadınlardan 3-ü sağlamlıq imkanları məhdud şəxsdir. Eyni zamanda 68 aztəminatlı ailənin özünüməşğulluğunun təmin olunmasına, fərdi təsərrüfatının yaradılmasına və inkişaf etdirilməsinə köməklik göstərilmişdir. Bu ailələrdə 4 müharibə veteranı, 46 əlilliyi olan, 10 ailə başçısını itirmiş, 7 nikahı pozulmuş, 3 cəzaçəkmə müəssisələrindən azad olunmuş şəxs vardır. Özünüməşğulluq proqramı çərçivəsində ailələrə 47 baş yanıbalalı iribuynuzlu, 70 baş yanıbalalı xırdabuynuzlu heyvan, 10 yerşumlayan aqreqat, 30 yeşik arı ailəsi, 1 dəst plastik boru avadanlıqları verilmişdir. Həmçinin əvvəlki dövrlərdə özünüməşğulluq proqramına cəlb edilmiş 6 nəfər təsərrüfatını nümunəvi şəkildə inkişaf etdirdiyi üçün əlavə olaraq kənd təsərrüfatı avadanlıqları ilə təmin olunmuşdur.

Qeyri-formal məşğulluq həm insanların sosial risklərə məruz qalmasına səbəb olan, həm də cəmiyyətin iqtisadi inkişafına ziyan vuran təhlükəli vasitədir. Naxçıvan Muxtar Respublikasında işəgötürən-işçi münasibətlərinin rəsmiləşdirilməsi və əmək münasibətləri iştirakçılarının hüquqlarının təmin olunması istiqamətində həyata keçirilən tədbirlər qeyri-formal məşğulluqla mübarizə sahəsində mühüm mərhələ təşkil edir. İkinci rübdə Dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrası məqsədilə 17 sahibkarlıq obyektində aparılan nəzarət zamanı əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işə cəlb edilən 24 işçi aşkar edilmiş və həmin işəgötürənlərə xəbərdarlıq olunmuşdur. Eyni zamanda yeni əmək fəaliyyətinə başlayan 479 sığortaolunan üçün elektron qaydada sosial sığorta şəhadətnaməsi sifariş edilmişdir. Nəzarət tədbirləri müəssisələrdə işçilərin əməyinin mühafizəsi səviyyəsinin müəyyənləşdirilməsini də əhatə etmişdir. Belə ki, muxtar respublika üzrə, ümumilikdə, 33 obyektdə nəzarət aparılarkən fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 36 işçi həmin vasitələrlə yerində təmin olunmuş, 28 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılmışdır. 1851 nəfərlə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqaviləsi bağlanmış, 70 əcnəbinin muxtar respublikada əmək fəaliyyəti ilə məşğul olmaları üçün müvafiq rəy verilmişdir.

Proqramda məşğulluq sahəsində məlumatlandırma tədbirlərinin həyata keçirilməsi ilə bağlı tapşırıq müəyyən olunmuşdur. İkinci rübdə muxtar respublikada fəaliyyət göstərən 26 müəssisəyə 59 istiqadi yönümlü informasiyanın çatdırılması təmin edilmişdir. Sahibkarlıq subyektlərinin 63 müraciəti araşdırılmış, 45 halda şifahi konsaltinq xidməti göstərilmişdir. Məşğulluq sahəsində görülmüş işlərə dair Naxçıvan Dövlət Televiziyasında 4 veriliş, 17 süjet, Naxçıvan Dövlət Radiosunda 7 veriliş hazırlanmış, “Şərq qapısı” qəzetində 8, rayon qəzetlərində 9 yazı dərc olunmuşdur.

Dövlət proqramının icrasından əldə olunan nəticələr ailə büdcəsinin dayanıqlı gəlir mənbələri



hesabına formalaşmasına, kiçik sahibkarlığın inkişafına, yeni iş yerlərinin yaradılmasına səbəb olmuşdur. Bunlarla yanaşı, proqramın icrası rayonlar üzrə ixtisaslaşmanın həyata keçirilməsinə, habelə hər bir bölgənin potensial imkanlarına uyğun olaraq kənd təsərrüfatının inkişafına, iqtisadi cəhətdən aktiv əhalinin işgüzar və yaradıcı təşəbbüskarlıqlarının artırılmasına da əsaslı zəmin yaradır. Bütün bunlar onu deməyə əsas verir ki, bu müddət ərzində muxtar respublikada məşğul əhalinin sayı artmış, əmək potensialının reallaşması prosesi geniş miqyas almış, insanların maddi rifah halı daha da yüksəlmişdir.

**“Şərq qapısı”**

*Yurdumuzun nemətləri*

# Müqəddəs və faydalı meyvə Naxçıvan torpağında



***Əncir hələ eramızdan çox əvvəl becərilən qiymətli meyvədir. Yer üzündə 1000-ə qədər növü məlum olan əncir haqqında bütün dinlərdə söz açılır. Müqəddəs kitabımız "Qurani-Kərim"in 95-ci surəsində Allah Təbarəkə-Təala buyurur: "And olsun, əncirə və zeytuna". Bu sözlər həmin meyvələrin müqəddəsliyini və insan orqanizmi üçün faydalı xüsusiyyətlərə malik olmasını təsdiqləyir. Əncir ağacı bir sıra mədəniyyətlər tərəfindən iqtidar simvolu və ibadət yeri, cənnətdən göndərilən meyvə kimi qəbul olunub. Bu səbəbdən də, bir sıra məzarlara başqa əşyalarla yanaşı, quru əncir də qoyulub. Tarixboyu bu ağacın, sadəcə, meyvəsi yox, qabığı, yarpaqları, kökləri və qatranı da dərman olaraq istifadə edilib. Əncir ekologiyaya verdiyi faydaları ilə də seçilir. Belə ki, yer üzündə 1200-dən çox canlı əncirlə qidalandığı üçün ekoloqlar onu "əsas qaynaq" olaraq görürlər.***

Ölkəmizin, demək olar ki, hər bölgəsində yetişən əncirin 2 – mədəni və Hirkan növləri daha geniş yayılıb. Subtropik meyvələr içərisində əncir dietikliyi, yüksək kaloriliyi, ətri, şirinliyi ilə digərlərindən fərqlənir. Təkcə bunlarla deyil, tərkibindəki vitamin, mineral və liflərlə zəngin bu meyvə muxtar respublikamızda da geniş şəkildə yetişdirilir. Qədim diyarımızın səfalı, füsunkar təbiəti ilə seçilən bölgələrindən olan Ordubadda bu meyvəni ərsəyə gətirən ailə təsərrüfatçılarının sayı kifayət qədərdir. Həm də əncir ən çox rayonun Kotam kəndində yetişdirilirmiş. Həmin kəndin sakini, ailə təsərrüfatçısı Nazim Həsənov deyir ki, bu meyvə bizim kənddə dədə-babadan əkilib-becərilir. Mən də bu işi öz ata-babamdan öyrənmişəm. Əncirin qara, ağ, kırım, sarı, şalaq növlərini yetişdiririk. Həyətyanı sahəmdə əkdiyim 10-15 əncir ağacından yaxşı məhsul əldə edirəm. Vaxtında qulluq etdikdə və yaxşı baxıldıqda bir ağacdan xeyli əncir götürmək mümkündür. Hazırda topladığımız məhsulu Naxçıvan bazarlarında satışa çıxarırıq, alıcı marağı da yüksəkdir. Əncirin mürəbbəsini, cemini də hazırlayır, həm də quruduruq. Muxtar respublikamızda təşkil olunan festivallarda bu məhsulla da rayonumuzu layiqincə təmsil edə bilirik. Bütün bunlar mənim kimi ailə təsərrüfatçılarına göstərilən diqqətin, qayğının nəticəsində mümkündür.

Müsahibim bildirir ki, başqa meyvə ağacları ilə müqayisədə əncir ağacının torpağa uyğunlaşmaq xüsusiyyəti vardır. Əncir xüsusi suvarma sistemi olmayan zəif torpaq tiplərində də yetişə bilir. Lakin bu bitki quraqlıq iqlim şəraitində bol məhsul verir. Əncir əkərkən fidanlar arasındakı məsafəni düzgün təyin etmək lazımdır. İstiyə tələbkar olduğu üçün qışı şaxtalı keçən rayonlarda əncir sərilən formada becərilir və üzəri torpaqlanır, bu meyvə rütubətə orta dərəcədə tələbkardır. Müxtəlif tip torpaqlarda – qayalıqlardan başlamış ağır gilli torpaqlara qədər bütün sahələrdə bitə bilir. Lakin bol və yüksəkkeyfiyyətli məhsul almaq üçün kifayət qədər rütubətlənmiş, su və hava keçirmə qabiliyyətli, münbit, dərin şum qatına malik torpaqlar əlverişlidir. Əncir, əsasən, çiliklə çoxaldılır, digər vegetativ artırma üsulları ilə də (basma, kök pöhrəsi və sair) artırıla bilər. O, payızda və yazda əkilir, qışı sərt keçən rayonlarda yaz əkini daha əlverişlidir.

Müsahibim qeyd edir ki, əncir ildə 1-2 dəfə meyvə verir, meyvələri oval, armudvarı formalı olan, rəngi bənövşəyi-sarıdan yaşıl rəngə qədər dəyişə bilir, ən çox görülən isə tündmavi və ya sarıdır (sarı-yaşıl). Bu bitki əlverişli iqlim şəraitində böyüyərsə, 200 il meyvə verməyə qadirdir. Ağac ildə bir neçə dəfə çiçək açır, ancaq meyvələr yalnız isti vaxtda (yazdan payızadək) yetişir. Soyuğadavamlı hesab olunur, bəzi növləri, hətta 20 dərəcəyə tab gətirə bilir.

Ailə təsərrüfatçısı onu da deyir ki, əncir həm də qiymətli qida, dərman bitkisidir. Tərkibində vitaminlər, kalsium, kalium, maqnezium, natrium, fosfor və dəmir vardır. Yarpağından alınan şirələr müxtəlif xəstəliklərin müalicəsində istifadə olunur. Həm təzə halda yeyilir, həm də ondan müxtəlif məhsullar – mürəbbə, cem, kompot, bəkməz, şərab, sirkə hazırlanıb əhali tərəfindən ilboyu istifadə olunur. Təzə əncir və ya qurusu çərəz kimi, salat və qəlyanaltılara əlavə kimi istifadə edilir. Əncir istənilən yeməyə ekzotik bir ləzzət və zərif ətir verir. Yüksək qidalı məhsul olan bu meyvə orqanizmə yüksək kalori verməklə yanaşı, həzm prosesini və ürəyin fəaliyyətini yaxşılaşdırır, qanazlığına və soyuqdəyməyə kömək edir. Əncir həm də ömrü uzadan qida hesab edilir. Onun meyvəsi ilə yanaşı, yarpaqları da müalicəvi xüsusiyyətləri ilə seçilir. Hələ qədimdə təbiblər öskürəyi, soyuqdəyməni, qızdırmanı əncir yarpaqlarının dəmləməsi ilə müalicə ediblər. Bu xüsusiyyətlərinə görə dövrümüzdə onu "təbii aspirin" adlandırıblar. Yarpaqlarından hazırlanmış çay həm də ürək xəstəliklərindən və yüksək təzyiqdən, şəkərli diabetdən əziyyət çəkənlərə faydalıdır. İnsana güc və gümrahlıq verir, əhvalı yaxşılaşdırır, stresi azaldır. Əncir ağacından əldə edilən süd sənayedə xərçəngin müalicəsində müsbət nəticələr verir.

Hazırda əncir mövsümüdür və Naxçıvan bazarlarında əncirin bir neçə növü satılır. Təzəsi, qurusu, mürəbbəsi ilə süfrələrimizi bəzəyən bu faydalı meyvədən siz də dadmağa tələsin...

**Güntac ŞAHMƏMMƏDLİ**

*Ötən ay Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı onlayn formada "Qızıl xoruz" tamaşasını nümayiş etdirmişdir. Naxçıvan Dövlət Filarmoniyası da iyul ayında konsert proqramlarını davam etdirərək, Xalq Çalğı Alətləri Orkestrinin onlayn solo konsertini musiqisevərlərə təqdim etmişdir.*

# Onlayn fəaliyyət davam etdirilir



İyul ayında Cəlil Məmmədquluzadənin və Hüseyn Cavidin ev-muzeylərindən keçirilən onlayn ekskursiyalar Naxçıvan Dövlət Televiziyasından və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin rəsmi internet saytından, eləcə də sosial şəbəkə hesablarından canlı olaraq yayımlanmışdır. Bundan başqa, Təhsil Nazirliyi ilə birgə iyulun 22-də "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində məktəblilərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə məktəbdənkənar müəssisələrin dərnək üzvlərinə, iyulun 29-da isə akademik Yusif Məmmədəliyevin ev-muzeyində Ordubad rayon məktəbliləri üçün onlayn ekskursiyalar təşkil edilmişdir. Ötən ay muzeyləri 1964 nəfər yerli, 31 nəfər əcnəbi olmaqla, ümumilikdə, 1995 tamaşaçı ziyarət etmişdir.

Ötən ay əlamətdar günlərlə bağlı – 1 avqust – Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü münasibətilə tədbir keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Məmməd Məmmədovun 100 illik yubileyinin keçirilməsi haqqında" 2020-ci il 28 yanvar tarixli Sərəncamına uyğun olaraq tanınmış bəstəkarın həyat və yaradıcılığından bəhs edən, eləcə də əsərlərindən ibarət "Məmməd Məmmədov – 100" adlı kitab nəşr edilmiş, disk buraxılmışdır. Bundan başqa, "Şərur yallıları haqqında" 2018-ci il 24 dekabr tarixli Sərəncamdan irəli gələn vəzifələrin icrası ilə əlaqədar "Yallılar dünəndən bu günə" kitabının çapa hazırlanması və videodiskinin buraxılması işləri davam etdirilmişdir. Bu günədək, ümumilikdə, 18 yallı ifasının çəkilişi aparılmışdır. "Saz sənətini yaşadırıq" adlı onlayn saz ifaçılığı müsabiqəsinə iyul ayında yekun vurulmuş, qaliblər diplomlar, fərqlənən ifaçılar isə fəxri fərmanlarla təltif olunmuşlar.

Hesabat ayında kitabxanalar tərəfindən videomateriallar, slaydlar, məlumatlar olmaqla, ümumilikdə, 188 material hazırlanmışdır. Həmçinin şeir, hekayə və poemalardan parçalar bədii qiraət edilməklə 130-dan çox videomaterial və audiokitab hazırlanmışdır. "Nağıl günləri" layihəsi çərçivəsində iyul ayında 51 audionağıl hazırlanmışdır. Ötən ay muxtar respublikanın kitabxanalarına 3 min 41 oxucu müraciət etmiş, onlara 15 min 823 nüsxə kitab verilmişdir. O cümlədən Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası və rayon (şəhər) Mərkəzləşdirilmiş Kitabxana sistemlərinin uşaq kitabxanaları tərəfindən sağlamlıq imkanı məhdud 22 uşağa səyyar kitabxana xidməti göstərilmişdir.

İyul ayında xalq yaradıcılığının öyrənilməsi, yaşadılması və gələcək nəsillərə çatdırılması ilə bağlı Ordubad rayonunda fəaliyyət göstərən mədəniyyət evləri və klublarının hazırladıqları xalq yaradıcılığı nümunələrinin Naxçıvan Dövlət Film Fondu tərəfindən çəkilişləri aparılmışdır.

Ötən dövrdə gənclərlə iş sahəsində "Naxçıvan: tarix və mədəniyyətin qovşağı" adlı onlayn müzakirə olmuş və "Yaşa və öyrən – dostluq" onlayn intellektual yarışı keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Dünən çimərlik futbolu üzrə ilk Naxçıvan Muxtar Respublika çempionatına start verilib.*

# Muxtar respublikada çimərlik futbolu üzrə ilk çempionat keçirilir



Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı, "Arazbet"in baş sponsorluğu ilə keçirilən çempionatda 12 komanda iştirak edir.

Uzunoba gölü ətrafında yeni inşa olunan çimərlik futbolu meydançasında keçirilən ilk muxtar respublika çempionatında komandalar 4 qrupda mübarizə aparır. Dairəvi sistemlə oynanılacaq oyunlardan sonra hər qrupun ən yaxşı nəticəni göstərəcək 2 komandası 1/4 finala vəsiqə qazanacaq. Bu mərhələdə komandalar bir görüşdən ibarət oyun keçirəcək və növbəti mərhələyə addımlayacaq. Yarımfinalda qalib olan komandalar isə finalda mübarizə aparmaq hüququ əldə edəcək. Bu mərhələdə məğlub olan komandalar bürünc medal uğrunda meydana çıxacaqlar.

Çempionat bir ay davam edəcək.

Dünən artıq iki oyun keçirilib. İlk görüşdə meydana "Prestij" və "Badamlı" komandaları çıxıb. Görüş "Badamlı" komandasının 3:2 hesablı qələbəsi ilə başa çatıb. Günün ikinci oyununda "Batabat" və "Aralıq" komandaları üz-üzə gəlib. Daha üstün oyun sərgiləyən "Aralıq" komandası meydanı qələbə ilə tərk edib – 9:3.

Bu gün çempionat "C" və "D" qrupunun iki oyunu ilə davam edəcək. Belə ki, əvvəlcə saat $18^{15}$-də meydana "Panter" və "Hava Limanı" komandaları çıxacaq. Azarkeşlər saat $19^{15}$-də "Antiinhisar"-"Yaycı" görüşünü izləyəcəklər.

**Ceyhun MƏMMƏDOV**

# Rezidenturaya qəbul imtahanının birinci mərhələsi olub

Dövlət İmtahan Mərkəzi avqustun 5-də baza ali tibb təhsili əsasında həkim-mütəxəssislərin hazırlanması məqsədilə rezidenturaya qəbul imtahanının I mərhələsini keçirib. İmtahan Bakı şəhərində 6 binada, Naxçıvan şəhərində isə 1 binada təşkil olunub. Bütün binalarda saat $11^{00}$ da başlayan və 2 saat 30 dəqiqə davam edən imtahanda 1428 namizəd biliyini sınayıb. İmtahanların keçirilməsi üçün, ümumilikdə, 7 imtahan binası, 110 imtahan zalı ayrılıb, imtahanlara 7 ümumi imtahan rəhbəri, 19 imtahan rəhbəri, 142 nəzarətçi-müəllim, 14 buraxılış rejimi əməkdaşı cəlb olunub.

Naxçıvan Muxtar Respublikasında imtahan Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbdə keçirilib. 61 nəfərin iştirak etdiyi imtahanın idarə olunması üçün 1 imtahan rəhbəri və 7 nəzarətçi cəlb edilib. Namizədlərə 100 test tapşırığı təqdim olunub, imtahanın ikinci mərhələsinə birinci mərhələdə topladığı bal 40-dan az olmayan namizədlər buraxılacaqlar.

Qeyd edək ki, dünən açıqlanan nəticələrə əsasən 295 nəfər bu ilin, 336 nəfər isə əvvəlki illərin məzunları olmaqla, ümumilikdə, 631 nəfər namizəd ikinci mərhələyə buraxılıb.

Qeyd edək ki, rezidenturaya qəbul imtahanının (baza fənləri üzrə biliklərin qiymətləndirilməsi) nəticələri ilə əlaqədar müraciətlərə baxılması üçün onlayn qaydada apelyasiya komissiyası fəaliyyət göstərəcək. Apelyasiya komissiyasına müraciət etmək üçün elektron ərizə forması *apelyasiya.dim.gov.az* saytında yerləşdiriləcək. Namizədlər apelyasiya komissiyasına 7-9 avqust 2020-ci il tarixlərində müraciət edə bilərlər.

**G. ŞAHMƏMMƏDLİ**

## 2020-ci ilin avqust ayı ərzində Məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının qrafiki

| № | Məşğulluq mərkəzləri | Yarmarkanın keçirildiyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | Sədərək Rayon Mədəniyyət Şöbəsinin binası | 12.08.2020 | $10^{00}$ |
| 2. | Kəngərli rayonu | Kəngərli Rayon Mədəniyyət Şöbəsinin binası | 13.08.2020 | $10^{00}$ |
| 3. | Şahbuz rayonu | Şahbuz Şəhər "Araz" kinoteatrının binası | 14.08.2020 | $10^{00}$ |
| 4. | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 17.08.2020 | $10^{00}$ |
| 5. | Ordubad rayonu | Ordubad Rayon Mədəniyyət Şöbəsinin binası | 18.08.2020 | $10^{00}$ |
| 6. | Babək rayonu | Babək Rayon Mədəniyyət Şöbəsinin binası | 19.08.2020 | $10^{00}$ |
| 7. | Şərur rayonu | Şərur Rayon Olimpiya İdman Kompleksinin inzibati binası | 20.08.2020 | $10^{00}$ |
| 8. | Naxçıvan şəhəri | Naxçıvan Regional Peşə Tədris Mərkəzi | 21.08.2020 | $10^{00}$ |

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 576